**Azərbaycan Respublikası**
**Təhsil Nazirliyi**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**
**ƏMR**
**№ 1/195**
**Bakı şəhəri**

*Məzmunu:* **Beynəlxalq Elmi Araşdırma Mərkəzinə işə qəbul haqqında**

Bakı Dövlət Universitetinin Elmi Şurasının 13 dekabr 2013-cü il tarixli iclasının qərarı əsasında 31 mart 2014-cü il tarixli R-30 nömrəli əmrlə BDU-da virtual Beynəlxalq Elmi Araşdırma Mərkəzi (BEAM) yaradılmışdır. BDU Elmi Şurasının 13 dekabr 2013-cü il tarixli iclasında xaricdə yaşayan elm adamlarının öz arzuları əsasında bu Mərkəzdə virtual olaraq (ştatdankənar) işə qəbul edilməsi məqsədəuyğun hesab edilmişdir. BDU Elmi Şurasının tövsiyyəsi əsasında BDU-nun internet səhifəsində yeni bir səhifə açılmış və artıq xaricdə yaşayan bir neçə elm adamından həmin mərkəzdə virtual işə qəbul edilmələri barədə təkliflər alınmışdır.

Yuxarıda qeyd edilənləri və BDU Elmi Şurasının 13 dekabr 2013-cü il tarixli iclasının qərarını nəzərə alaraq

**ƏMR EDİRƏM**

**I.** Xaricdə yaşayan və adları aşağıda qeyd edilən elm adamları BEAM-da virtual olaraq (ştatdankənar) elmi işçi vəzifəsinə işə qəbul edilsinlər:

1. Əfəndiyev Məsud (Masud Efendiyev) – Helmhols adına Münhen Tədqiqat Mərkəzinin professoru.
2. Məmmədov Əmrullah (Mehmetov Emirullah) – Bilkent Universitetinin professoru.
3. Səlimov Arif (Salimov Arif)– Atatürk Universitetinin professoru.
4. Həsənov Ələmdar (Hasanov Alemdar) – İzmir Universitetinin professoru.
5. Kocahan Sayad – Çukurova Universitetinin dosenti.
6. Hasanoğlu Arif – Çukurova Universitetinin professoru.

**II.** Elm və innovasiyalar üzrə prorektor, prof.Aydın Kazımzadə BEAM-ın sədri təyin edilsin.

**III.** Fizika fakültəsinin dekanı, prof.Məhəmmədəli Ramazanov və Bilkent Universitetinin professoru Əmrullah Məmmədov BEAM sədrinin müavinləri təyin edilsinlər.

**IV.** Nanoaraşdırmalar Elmi Tədqiqat Mərkəzinin böyük elmi işçisi, f.ü.f.d. Zöhrab Ağamalıyev BEAM-ın elmi katibi təyin edilsin.

**V.** BEAM-ın Əsasnaməsinə uyğun olaraq nəzərə alınsın ki, BEAM-ın sədri, sədr müavinləri, elmi katibi və üzvləri ictimai əsaslarla fəaliyyət göstərirlər.

**Əsas:** Rektorun, Elm və innovasiyalar üzrə prorektorun dərkənarları ilə Elm və innovasiyalar üzrə prorektorun təqdimatı.

***R E K T O R*** ***akademik A.M.MƏHƏRRƏMOV***